# QARABAĞLI HÜQUQŞÜNAS HƏSƏNALI BƏY ƏSGƏRXANOV



Vətənini aşırı sevən, erməni qəsbkarlarının qənimi olaraq tanınan, hüquqşünas, tanınmış şəxsiyyət Həsənalı bəy Əsgərxanovun həyatı, fəaliyyəti hər zaman tarixçilərin diqqət mərkəzində olmuşdur. Həsənalı bəylə bağlı geniş məlumatlarla jurnalist, etnoqraf Ənvər Çingizoğlunun məqalələrindən, xüsusən də "Qarabağlı hüquqşünaslar" adlı kitabından tanış ola bilərik. Fəqət məqaləmizdə Həsənalı bəyin həyatına, tariximizdə tutduğu yerə fərqli aspektdən yanaşacağıq.

### Həsənalı bəyin həyatı və fəaliyyəti

Qarabağın seyrəngahı Şuşa qəzasının Yağləvənd obası, 1855-ci il. Şıxəli bəy və Tutu xanımın ailəsində bir körpə dünyaya gözlərini açdı. Şıxəli bəy heyvandarlıq və əkinçiliklə məşğul olmuş, Yağləvənd obasının tanınmış şəxslərindən idi. Şıxəli bəyin Məhərrəm bəy, Behbud bəy, Həsənalı bəy adlı oğulları, Əcəb xanım adlı isə qızı vardı. Həsənalı bəy tanınmış Əsgərxanovlar nəslindən idi. Onun babası Ağakişi bəy Əsgərxanov Qarabağ xanı İbrahimxəlil xanın atlı dəstəsində bölükbaşı olmuşdu. Bölükbaşı kimi fəaliyyətində fərqlənən Ağakişi bəy dininə olduqca bağlı biri idi, belə ki, Xorasana yollanaraq İmam Rzanın məqbərəsini ziyarət etmişdi. Göründüyü kimi Həsənalı bəy adlı-sanlı bəyin nəvəsi olmuşdur.

Həsənalı bəy orta təhsilini Şuşa qəza məktəbində tamamlayaraq Sank-Peterburqda Konstantin Yunkerlər məktəbinə yollanmışdır. Daha sonra çar ordusu sıralarında xidmət etmişdir. Xidmətlərinə görə bəy "Georgi xaçı" ilə təltif edilmişdir. Bu xaç çar ordusunda xüsusi cəsurluq nümayiş etdirən hərbi qulluqçulara təqdim edilirdi.

Həsənalı bəy Əsgərxanov əvvəlcə uryadnik (çar ordusunda zabit), daha sonra isə polis pristavı olaraq xidmət göstərmişdir. Qazax və Zəngəzur qəzalarında polis olaraq xüsusi xidmətdə olmuşdur. Həsənalı bəyin xüsusi fəaliyyəti hər zaman yüksək mövqelər tərəfindən qiymətləndirilmişdir. Belə ki, bəyin şərəfli adı Kremlin "Georgi" salonunda xüsusi olaraq qeyd edilmişdir. Hətta Həsənalı bəy Əsgərxanov Rusiya İmperiyasının ali mükafatı olan Müqəddəs Anna ordeni ilə təltif edilmişdir.

1905-1906-cı illərdə erməni təxribatçıları tərəfindən müsəlmanlara qarşı törədilən soyqırımlar daha geniş vüsət almışdı, bu zaman bir sıra bəylər ermənilərə qarşı müsəlmanları qorumaq üçün silaha sarılmışdır. Onların birincisi də Həsənalı bəy Əsgərxanov idi. Təsadüfi deyildir ki, Həsənalı bəy ***erməni qəsbkarlarının qənimi*** ləqəbi ilə tanınırdı. 1905-1906-cı illəri geniş şəkildə ədəbiyyat nümunəsi olaraq təsvir edən Məmmədsəid Ordubadi "Qanlı sənələr" adlı əsərində belə qeyd edirdi:

*Müsəlmanlar bu vaxt böyük qətiyyət göstərib sədlərdən çıxıb düşmən üzərinə atılırdılar. Bu halda başqa müsəlman kəndləri işdən xəbərdar olub atına minib kömək üçün Qacar hərb meydanına yürüş edirdilər. Əvvəlcə kömək üçün gələn Yağlıvənd sakini* ***Həsənəli bəy Əsgərxanov*** *cənabları idi. 20 müsəlləh süvari ilə Xəzəz dağına yetişib Məlikşahnəzərov firqəsinə yaxınlaşıb şiddətli atəş açar. Həsənəli bəy süvariləri düşmənin qüvvətindən çəkinməyərək hər dəqiqə yürüş etməklə erməniləri sədlərdən çıxarıb Xəzəz dağının təpəsini işğal etdi. Dağın təpəsinə çatar-çatmaz süvarilərinə lazımi göstərişlər verib yenə müharibəyə başladı. Müsəlmanlara gəldikdə ermənilərin mühasirə xəttinə baxmayaraq, sədlərdən bayıra atılıb siyirmə xəncərlə bəxtə-bəxt hücuma başlamışdılar.*

### Həsənalı bəyin ədəbiyyatı

Ədəbiyyat və hüququn qarşılqlı əlaqəsi olduqca genişdir: Çünki hər iki sahənin predmeti insan taleyi ilə bağlıdır. Hüquq cəmiyyətdə olan ictimai münasibətləri tənzimləyir, ədəbiyyat isə bu ictimai münasibətlərə yazıçı, şairlər tərəfindən göstərilən münasibətlə bağlıdır. Ədəbiyyat adamı insanları öz əsərlərində ittiham edir. Həsənalı bəyin ədəbiyyata sevgisi xüsusi idi, çünki şair idi.



Həsənalı bəy Kovxa təxəllüsü ilə şeirlər yazırdı. Ənvər Çingizoğlunun məqaləsinə istinadən qeyd edə bilərik ki, bəyin şeirdən, ədəbiyyat nümunələrindən olduqca yaxşı anlayışı var idi. Əslində bu Qarabağın təbiətinin yetişdirdiyi dəyərli şəxsin qəlbindən gələn, damarlarından qan kimi süzülərək axan, bədahətən deyilmiş ədəbiyyat nümunələridir. Bu nümunələrə nəzər yetirək:

#### Gördüm Qoşması

Deyimmi, İsrafil ağa,
Gör Qazaxda nələr gördüm.
Kimlərisə at belində,
Kimlərisə gülər gördüm.

Nə gəzirsən soldan-sağa,
Kazım ağa, çıx qırağa,
Söyünbəyli Söyün ağa,
Mən səni səd həzar gördüm.

El köçərdi bil yaylağa,
Boylanardı sola-sağa.
Dilbaz oğlu Çingiz ağa
Qutarmayan azar gördüm.

Qiymət qoyar aca, toxa,
Alardı hədəfə, oxa,
Daşsalahlı Məmməd koxa
Səni açıq bazar gördüm.

Bir daşnaq var adı Sumbat,
Adam bilmə heyvana qat.
Birini də ondan babat,
Xoşkotanlı Qazar gördüm.

#### Olsun Qoşması

Eşitmişəm, Mirzə, şair olubsan,
De hədyanı sənin üçün ad olsun.
Kəbin pulu etməz sənə kifayət,
Bəlkə bu işlərdə nəfli zad olsun.

Keçən vaxtı Arazbarda olardıq,
Haramıda ceyran-cüyür ovlardıq,
Kəklik-turac xurcunlara dolardı,
Nədən indi yediyimiz cad olsun.

Əsgərxanov bilirsən ki, öyünməz, Özünə gərrahdı şaha baş əyməz. Çağrılmamış yerdə hərgiz görünməz, İstər qohum olsun, istər yad olsun.

### Həsənalı bəyin ailəsi

Həsənalı bəy Qarabağın tanınmış bəylərindən Ələkbər bəy Məlikaslanovun qızı Asiya xanımla ailə həyatı qurmuşdur. Bu evlilikdən onların Əsgərxan bəy, Cəmil bəy, Şəmil bəy, Cəlal bəy adlı oğulları, Səadət xanım, Nabat xanım, Tavat xanım, Şövkət xanım və Firuzə xanım adlı qızları vardı.

Bəyin oğlu **Şamil bəy Əsgərxanov** Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabiti idi. Ənvər Çingizoğlu öz məqaləsində yazırdı ki, Şamil bəy Əsgərxanov 1890-cı ildə Cəbrayıl qəzasının Yağlıvənd obasında anadan olmuşdur. Sonra Qarabulaq kənd məktəbini bitirmişdi. Təhsilini Tbilisi hərbi məktəbində almiş. Subay idi. Azərbaycan ordusunda ştabs-kapitan rütbəsi almışdı. 9-cu və 106-cı Qafqaz alayları ilə Qarabağa yollandı. Azərbaycan ordusu yenidən təşkil olunandan sonra Şamil bəy Əsgərxanov 2-ci Qarabağ alayının tərkibində xidmət etməyə başladı. Şamil bəy Əsgərxanov 2-ci Qarabağ süvari alayının tərkibindən çıxarılıb, Cəbrayıl qəzasına ezam edilir. O, burada köçəri obalardan atlı hissə təşkil etməli idi. 1920-ci ildə erməni-bolşevik qurumları tərəfindən tutulmuşdu.

Həsənalı bəyin nəslinin tanınmış nümayəndələrindən biri də Eldar bəy Əsgərxanovdur. Eldar bəy hələ 1970-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsinin müavini vəzifəsində çalışmışdır. Məhz belə çətin zamanlarda bu cür yüksək vəzifədə olan yeganə azərbaycanlı idi.

Nəslin digər nümayəndəsi Eldar Əsgərxanovun oğlu Samir Əsgərxanovdur. Samir Əsgərxanov tanınmış jurnalist və publisist idi. O, Qarabağ müharibəsinin hələ qızğın vaxtlarında verlişlər hazırlamış, bu müharibənin dəhşətləri haqqında məlumatlar vermişdir. Samir bəy Əsgərxanov adına keçmiş Milli Təhlükəsizlik Nazirliyi tərəfindən "Samir Əsgərxanov" mükafatı təsis edilmişdir. Bu mükafat erməni terrorizminə qarşı ideoloji mübarizənin ən parlaq nümunəsidir.

Son söz əvəzinə qeyd etmək istərdik ki, Həsənalı bəyin nəslinin digər nümayəndələri bu gün müstəqil Azərbaycan Respublikasında azad, firavan yaşamaqdadırlar. Bu il-2025-ci il Həsənalı bəy Əsgərxanovun 170 illik yubileyidir. Bu münasibətlə isə məqaləni ərsəyə gətirməyi nəslin nümayəndəsi olaraq özümüzə borc bildik. Həsənalı bəyin doğulub böyüdüyü Qarabağ torpağı, Yağləvənd kəndi bu gün azaddır. Əminik ki, Həsənalı bəyin ruhu şaddır. Rahat uyu, Həsənalı bəy.

***Ramazan MAHİR OĞLU ƏSGƏRXANOV***
***Ankara Universiteti Hüquq Fakültəsi,***
***Mülki hüquq ixtisaslaşması üzrə magistrant***
***15 avqust, 2025-ci il.***
***Azərbaycan, Sumqayıt şəhəri.***